# Məktəbimizin uğurları artır



**Fikrət müəllimi uzun illərdir ki, tanıyıram. Həmişə onu mehriban və qayğıkeş görmüşəm. İşinə məhəbbəti, vəzifəsinə məsuliyyəti ilə seçilir. Bölgədə xüsusi nüfuza malik olması da təbii ki, ilk növbədə bununla izah edilməlidir.**

Rəhbərlik etdiyi Zərdab Uşaq İncəsənət məktəbi 1968-ci ildən fəaliyyət göstərir. 1982-ci ilədək musiqi məktəbi tək tanınıb. Əvvəllər istər müəllim və şagirdlərin, istərsə də ixtisas fənlərinin sayı indiki qədər olmayıb. Maddi-texniki baza da bugünkü qədər ürək açmayıb. Odur ki, kollektiv nisbətən ağır şəraitdə çalışıb. Bununla belə uğurları ilə diqqət çəkib.

Fikrət Həsənov ADMİU-nun mədəni-maarif fakültəsini bitirən ildən məktəbə direktor təyin olunub. İllər ötdükcə çətinliklər arxada qalıb, təcrübə artıb, təhsilin keyfiyyətinə daha çox diqqət yetirilib. Bu, həm də bacarıqlı ixtisas müəllimlərinin məktəbə cəlb edilməsi ilə mümkün olub. Ən başlıcası isə, təhsil həvəskarlıq çərçivəsindən çıxaraq peşəkarlıq tələblərinə uyğun qurulub.

Ötən ilin oktyabrında rayon ictimaiyyətinin nümayəndələrinin və respublikanın ayrı-ayrı yerlərindən gəlmiş qonaqların iştirakı ilə məktəbin yeni binasının açılışı olub. 44 sinif otağından və 110 nəfərlik konsert zalından ibarət yeni binada müasir yeməkxana da şagirdlərin xidmətindədir.

Məktəbdə ayrı-ayrı ixtisaslar üzrə 385 şagirdin təhsili ilə 69 müəllim məşğul olur. Fortepiano, tar, qarmon, kamança, nağara, xanəndəlik, təsviri incəsənət və hazırkı tədris ilindən xoreoqrafiya ixtisasları üzrə təhsil alan şagirdlər arasında xüsusi istedadı, qabiliyyəti olanlar çoxdur.

Uşaq xor kollektivinin VI Respublika müsabiqəsində məktəbin 35 nəfərlik xor kollektivi Mədəniyyət və Turizm Nazirliyinin Fəxri Fərmanına layiq görülüb. Ötən il Azərbaycanda Uşaq ili və Uşaq Hüquqları Konvensiyasının 20 illiyi münasibətilə Ombudsmanın keçirdiyi "Bizim hüquqlarımız" mövzusunda uşaq rəsmləri müsabiqəsinin iştirakçısı İsrayıl Qalaslı birinci mükafata layiq görülüb.

Məktəbin məzunu, hazırda A.Zeynallı adına Orta ixtisas Musiqi Texnikumunda xanəndəlik ixtisası üzrə təhsil alan Sevda Nurəliyeva "Muğam-2007" müsabiqəsinin laureatı, respublika vətənpərvərlik mahnıları festivalının qalibi olub.



Ötən il məktəbin məzunu Nicat Əlifi Milli Konservatoriyaya daxil olaraq xalq çalğı alətləri üzrə tar ixtisasına yiyələnir. Müxtəlif orta ixtisas üzrə musiqi texnikumlarına qəbul edilən məzunlar da çoxdur.

Vaxtilə bu məktəbdə təhsil almış Gülbəniz Quliyeva, Dilarə Seyidova fortepiano, Arif Şərifov tar, Təranə Xəlilova xanəndəlik, İradə Eminova xoreoqrafiya ixtisasları üzrə indi öz davamçılarını hazırlayırlar. Onlar ölkənin ayrı-ayrı təhsil ocaqlarında ixtisaslarını artırdıqdan sonra yenidən doğma məktəbə dönüblər.

Söhbət zamanı Fikrət müəllim şagirdlərin vətənpərvərlik ruhunun artırılmasına ciddi diqqət yetirildiyini vurğuladı.:

- Ü.Hacıbəylinin "Döyüşçülər marşı", "Cəngi", S.Rüstəmovun "Sərhədçilər marşı", Q.Qarayevin "Marş"ı kimi qəhrəmanlıq mövzulu əsərlərin, həmçinin "Qarabağ şikəstəsi" ritmik muğamının tədrisi şagirdlərin qəlbində vətən, torpaq sevgisini, döyüşkənlik ruhunu, mübarizə əzmini daha da artırır. Respublika Mədəniyyət və Turizm Nazirliyi məktəbə diqqət və qayğısını əsirgəmir. Belə ki, nazirlik tərəfindən məktəbimizə 2 fortepiano hədiyyə edilib. Məktəbdəki royal, həmçinin digər musiqi alətləri şagirdlərin istifadəsindədir.

**Məktəb nazirlik tərəfindən tədris vəsaiti ilə də yetərincə təmin olunur. Bir sözlə, şagirdlərimizin seçdikləri ixtisaslara yüksək səviyyədə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Düşünürəm ki, bu imkanlardan səmərəli istifadə etməklə daha böyük uğurlara imza atacağıq.**

**● Tural**